# Heydər Əliyev Fondu və "BP Azərbaycan" şirkətinin dəstəyi ilə hazırlanan film "BBC World News"da





Tarixçi, yazıçı, aparıcı və məşhur "Dünya xəzinələri" sənədli filmlər silsiləsinin ssenari müəllifi və təqdimatçısı Bettani Hyuzun (Bettany Hughes) Azərbaycanın tarixi və mədəni xəzinələri barədə filmi "BBC World News" telekanalında nümayiş etdirilməyə başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu və "BP Azərbaycan" şirkətinin tərəfdaşlığı ilə hazırlanan film Böyük Britaniyanın "SandStone Global" Prodakşn şirkəti tərəfindən Bakı Media Mərkəzinin dəstəyi çərçivəsində ərsəyə gəlib.

Müəllif əsrarəngiz filmlərindən biri - "Azərbaycan möcüzələri" ekran əsərinin araşdırmaları və çəkilişləri üçün iyun ayında Azərbaycana səfər etmişdi.

Qeyd edək ki, iki hissədən ibarət filmdə Bakı, Şuşa, Qobustan və Şəkinin əfsanəvi və heyranedici tarixi və mədəni irs xəzinələri araşdırılıb və təqdim olunub. Filmin "İpək yolu" adlı hissəsi Qobustan və Şəki, "Odlar Yurdu" adlı hissəi isə Bakı və Şuşaya həsr olunub.

Filmin "Odlar Yurdu" adlı ikinci hissəsi avqustun 27-28-də "BBC World News" kanalında yayımlanacaq.

Filmin eyni zamanda Azərbaycan dilində versiyası hazırlanaraq təqdim ediləcək.

Azərbaycan.- 2022.- 28 avqust.- S. 2.